# *PEDAQOJİ ELMLƏR*

## Müasir qiymətləndirmə növlərinin tətbiqi təhsilin keyfiyyətinin yüksəldilməsində mühüm amildir

**Nabat Cəfərova**
*pedaqogika üzrə elmlər doktoru,*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
**E-mail:** nabat_ceferova@mail.ru

**Rəyçilər:** p.ü.f.d., prof. N.Ə. Abdullayev,
p.ü.f.d., dos. K.Ə. Məmmədova

**Açar sözlər:** müasir qiymətləndirmə, nailiyyət, qiymətləndirmə növləri, təcrübə
**Ключевые слова:** современная оценка, достижение, виды оценки, опыт
**Key words:** modern assessment, achievement, types of assessment, experience

Qiymətləndirmə və təlim prosesinə təhsilin qarşılıqlı əlaqədə olan iki tərəfi kimi baxılır. Şagird nailiyyətlərinin qiymətləndirilməsi şagirdin biliklərə yiyələnmə, onlardan istifadə etmə, nəticə çıxarma bacarıqları haqqında məlumatların toplanması prosesi kimi qəbul edilir və aşağıdakı məqsədlərə xidmət edir:

- Şagird irəliləyişlərinin izlənilməsi (monitorinqi);
- təlim prosesində qərarların qəbulu;
- şagirdin təlim nəticələrinin qiymətləndirilməsi;

Düzgün həyata keçirilmiş qiymətləndirmənin nəticələri müəllimin fəaliyyəti, bu fəaliyyətin şagirdlərin tələbatına nə dərəcədə cavab verməsi, habelə kurikulumda, planlaşdırmada və dərsliklərdə müvafiq dəyişikliklərin aparılması zərurəti haqqında qərar qəbul etməyə imkan verir. Məzmun standartlarının mənimsənilməsi istiqamətində qiymətləndirmənin diaqnostik, formativ, summativ növlərindən istifadə olunur. Qiymətləndirmənin bu növləri şagirdlərin hər bir fənnin məzmun standartlarında göstərilən əsas bilik və bacarıqları əldə etməsinə yönəlmiş fəaliyyət istiqamətlərini təmin edir.

Diaqnostik qiymətləndirmə şagirdlərin bilik və bacarıqlarının, o cümlədən maraq və motivasiyasının ilkin qiymətləndirilməsi məqsədi daşıyır. Diaqnostik qiymətləndirmə dərs ilinin və ya fənn üzrə tədris resurslarında nəzərdə tutulmuş hər bölmənin əvvəlində aparılır və şagirdin potensial imkanlarını nəzərə alan təlim strategiyalarının seçilməsinə xidmət edir.

Formativ qiymətləndirmə şagird nailiyyətlərinin monitorinqi vasitəsilə tədrisin düzgün istiqamətləndirilməsinə xidmət edir və bu qiymətləndirmə fənni tədris edən müəllim tərəfindən məzmun standartlarından irəli gələn təlim nəticələri əsasında hazırlanmış meyarlar üzrə aparılır.

Summativ qiymətləndirmə şagirdin fəaliyyətinin izlənməsinin rəsmi qiymətləndirilməsidir. Summativ qiymətləndirmədə təhsilalanlar üçün qiymətləndirmə vasitəsi kimi təkcə test deyil, imla, inşa, ifadə, çalışma və s. istifadə edilir. Bu qiymətləndirmənin nəticəsi jurnala yazılır, onun əsasında yarımillik, illik qiymətlər çıxarılır və yekun qiymətlər attestata yazılır. Yeni qaydalara əsasən ən böyük dəyişikliklər qiymətləndirmənin məhz bu növündə edilib [8, s. 2].

Qiymətləndirmə, əsasən, məzmun standartlarının reallaşmasına xidmət edən tapşırıqların

yerinə yetirilməsi keyfiyyəti ilə müəyyən edilir. Qiymətləndirmənin obyekti kimi şagirdlərin yerinə yetirdiyi tapşırıq, qrupların işində və diskussiyalarda fəal iştirak, sual vermək, tədqiqat aparmaq, müsahibə, layihələrin hazırlanması, esse, inşa, hekayə yazmaq bacarığı, anketlərin hazırlanması və s. ola bilər. Şagirdlər öz biliklərini və əqli vərdişlərini şifahi, yazılı, vizual, rollu, ya da digər formada təqdimatlar yolu ilə nümayiş etdirə bilərlər. Yaxşı təşkil edilmiş təqdimetmə şagirdlərin biliklərinin və əqli vərdişlərinin yüksək səviyyədə olması deməkdir. Dərslərdə nə qiymətləndirilir?

1. Məzmunun - əsas faktların və terminlərin, səbəb-nəticə əlaqələrinin, nəticə və ümumiləşdirmənin mənimsənilməsi.
2. Təhliletmə vərdişlərinin, öyrənmə bacarığının, digər qrupların baxışlarının, yaxud nöqteyi-nəzərinin başa düşülməsi.
3. Dəyərlərin formalaşdırılması.

Dərs prosesində qiymətləndirmənin aparılması üçün əvvəlcədən məzmun standartlarına istinad edən müvafiq meyarlar hazırlanmalıdır. Qiymətləndirmə meyarları aşağıdakı tələblərə cavab verməlidir:

- Şagirdlərin qiymətləndirilməsi üçün dəqiq meyarlar işlənib hazırlanmalıdır.
- Meyarlar bilik və bacarıq, o cümlədən, informasiyanı aydın təqdim etmək bacarığı və məntiqi təfəkkür qabiliyyəti kimi göstəricilərinin inkişafını əks etdirməlidir.
- Qiymətləndirmə meyarları aydın olmalıdır.

Deməli, müəllimin qiymətləndirmə meyarları dəqiq olmalıdır. Belə olduqda müəllimdə bu və ya digər şagirdin işini eyni qaydada qiymətləndirəcəyinə bir o qədər çox yəqinlik yaranar. Şagirdlərin özləri də qiymətləndirmə meyarlarını bilməlidirlər ki, onlardan nə gözlənildiyini təsəvvür etsinlər. Yerinə yetirilmiş tapşırığın qiymətləndirilməsi meyarlarını şagirdlərin özlərinin müəyyənləşdirməsi də prinsipial məsələdir.

Qiymətləndirmə əks-əlaqənin, əməkdaşlığın yaradılmasına kömək etməli, yəni şagird-müəllim münasibətlərinin düzgün qurulmasına onların bir-birini daha yaxşı başa düşməsinə yardım göstərməlidir. Şagirdlər qiymətləndirmə meyarlarını kiçik qruplarda işləyib hazırlaya, sonra isə bütün siniflə birlikdə müzakirə edə bilərlər. Yekun qiymət şagirdin özünüqiymətləndirməsindən, onun qruplardakı işinin qiymətindən və müəllimin verdiyi qiymətdən toplanaraq yarana bilər. Qiymətləndirmənin müxtəlif üsul və formaları vardır: müsahibə, müşahidə, oxu, yazı, tapşırıqlar, testlər, inşa, esse və s.

Bundan başqa dərslərdə qiymətləndirmə üçün müəllim tərəfindən hazırlanmış iş vərəqindən istifadə etmək faydalıdır. İş vərəqindəki tapşırıqlar iki növə ayrılır:

- müəyyən konkret cavabı olanlar testlər;
- açıq suallı tapşırıqlar.

Açıq suallı tapşırıqlar müəyyən dərəcədə şagirdlərin bəzi şəxsi xüsusiyyətlərinin öyrənilməsi vasitəsi rolunu oynayır və onların özünüdərki üçün istifadə olunur. İş vərəqi fəal/interaktiv təlimin həyata keçirilməsi zamanı şagirdlərin tədqiqat işini təşkil edən, onu məqsədə yönədən vasitədir [5, s. 35-37].

Kiçik qruplara verilən problem və onun həllinin nəticələri iş vərəqində əks olunur. İş vərəqinə aşağıdakı tələblər verilir:

- Cəlbedici məzmunu və tərtibatı olmalıdır.
- Qarşıya qoyulan tələb, verilən tapşırıq aydın və konkret olmalıdır.
- Uşaqların yaş və bilik səviyyəsinə uyğun olmalıdır.
- Dərsin təlim nəticəsinə uyğun olmalıdır.

Şagirdin özünüqiymətləndirməsi. Ola bilsin ki, bəzi dərslərdə müəllim tərəfindən biliyin

yekun qiymətləndirilməsi nəzərdə tutulmur və qiymət qoymaq tövsiyə edilmir. Lakin onlar şagirdlərin refleksiya, yəni suallara cavablar, müzakirələr vasitəsilə özünüqiymətləndirməsinə yol açır. Şagirdlərin öz fəaliyyətinin qiymətləndirilməsinə cəlb edilməsi çox vacibdir, çünki bu iş məktəbliləri öz davranışına daha məsuliyyətlə yanaşmağa sövq edir, onlarda obyektivliyin tərbiyə edilməsinə yardımçı olur, öz münasibətlərini düzlük və qarşılıqlı anlaşma prinsipləri əsasında qurmağı öyrədir. Şagirdin öz-özünü necə gördüyünü müəyyən etməsi vacibdir, çünki özünüqiymətləndirmə ilə kənardan verilən qiymətlərdəki fərq öz-özlüyündə qrup və fərd üçün zəngin informasiya mənbəyi olur. Dərsə aşağıdakı suallar yazılmış kiçik anketin köməyi ilə yekun vurmaq mümkündür: 1. Dərsdə sizin ən çox xoşunuza gələn nə oldu? 2. Daha çox xoşlamadığınız nə idi? 3. Vəziyyətin yaxşılaşması üçün nə təklif edirsiniz?

Qrup işinin qiymətləndirilməsi. Şagirdin qrupdakı işini necə qiymətləndirməli? Şagirdin qrupdakı işinin qiymətləndirməsini hər bir şagirdin qrupun işinin ümumi nəticəsinə verdiyi töhfənin faizlə nisbətinə əsasən müəyyənləşdirmək olar. Müəllim bütövlükdə qrupun aldığı balların miqdarını müəyyən edir. Məsələn, dörd nəfərdən ibarət qrupa 20, üç nəfərlik qrupa 15 bal verilir. Şagirdlər bu balları hər kəsin ümumi nailiyyətdəki roluna, verdiyi töhfəyə əsasən müstəqil olaraq bölüşdürürlər.

Qrupdakı işə görə alınmış ballara sinifdə aparılmış diskussiyada iştirak üçün müəllim tərəfindən verilmiş mükafat balını da əlavə etmək zəruridir. Balların yekunu xüsusi jurnala yazılır. Orijinal cavablara görə daha üç bal vermək olar. Rübün və ilin sonunda balların yekunu reytinq qiymətini təşkil edir ki, bu da şagirdlərin düşünmək və öz fikirlərini şifahi ifadə etmək, diskussiyada təşəbbüsü öz üzərinə götürmək qabiliyyətini əks etdirir. Dərslərdə şagirdlər, onların fikrincə, qrupun işinə faiz hesabı ilə nə kimi töhfə verdiklərini elan edirlər; onlar təsadüfi qaydada cütlüklərlə bir-birinin rolunu, töhfəsini izah edirlər, qrup ayrı-ayrı şagirdlərin öz töhfəsi ilə bağlı təəssüratını ümumilikdə ya təsdiq, ya da təkzib edir. Şagirdlər bir-birinin biliklərini qiymətləndirməklə sinif yoldaşına öz səhvlərini aradan qaldırmaqda kömək edə bilirlər.

Qrupun özünüqiymətləndirməsi üçün müəyyən formalı vərəqələrdən istifadə etməklə bütövlükdə qrupun necə işlədiyinə, öz tapşırığını necə yerinə yetirdiyinə qiymət vermək olar [7, s. 55].

Qeyd etmək lazımdır ki, dərslərin qiymətləndirilməsində müəyyən prinsiplər gözlənilməlidir. Dərslərin qiymətləndirilməsi zamanı əsas diqqət təkcə informasiyasının mənimsənilməsinə deyil, həm də cəmiyyətin həyatında bir vətəndaş kimi iştirak etmək üçün zəruri olan bacarıqların mənimsənilməsinə yönəlir. Müasir vətəndaş cəmiyyətində bu bacarıqlar fəaliyyətin dörd növündə cəmlənir:

- tədqiqat aparma bacarığı;
- ünsiyyət qurma bacarığı;
- qərar qəbuletmə bacarığı;
- fərdi və kollektiv fəaliyyətin təşkili.

Cavabların müxtəlifliyinin qəbul edilməsi əsas prinsiplərdən biri olmalıdır. Bu prinsiplərin ardıcıl həyata keçirilməsi şagirdlərin əməkdaşlıq etməsinə, ümumi mövqe işləyib hazırlamasına imkan verir. Həmçinin fəal təlim metodlarının tətbiq edildiyi dərslərdə müəllim etibara, hörmətə əsaslanan əməkdaşlığa hazır olmalıdır.

Qruplarla iş və təqdimatlarda iştirakın qiymətləndirilməsinin meyarları, şagirdlərin özünüqiymətləndirmə vərəqləri fəal təlim metodlarının tətbiq olunduğu dərslərdə istifadə edilir. Müəllim üçün metodik vəsaitdə verilən qiymətləndirmə meyarlarına müəllim lazım

bildiyi başqa qiymətləndirmə parametrləri də əlavə edə bilər. Qruplarda işin qiymətləndirilməsi meyarlarını müəyyənləşdirmək üçün aşağıdakı məsələlər diqqət mərkəzində saxlanılmalıdır:

- Şagird tapşırığın məqsədləri üzərində diqqətini cəmləşdirirmi?
- O, qrupun digər üzvləri ilə qarşılıqlı əlaqədə çalışırmı?
- Başqalarına mane olmadan işləyirmi?
- O, qrupun bütün üzvləri ilə nəzakətlə rəftar edirmi?
- Şagird tapşırığın yerinə yetirilməsinə nə kimi töhfə verir?
- Qrup halında işin yaxşılaşdırılması yollarını tapmağa kömək edirmi?

Ümumiyyətlə, qiymətləndirmə mexanizmlərinin və vasitələrinin yaradılması təhsilin inkişafında mühüm mərhələlərdən biridir. Təlim prosesində müasir qiymətləndirmə növlərinin tətbiqi təhsilin keyfiyyətinin yüksəldilməsində mühüm amildir. Təlim nəticələrinin obyektiv qiymətləndirilməsi təhsilin keyfiyyətinin müəyyənləşdirilməsində əsas göstərici kimi şagird nailiyyətlərinin kəmiyyət və keyfiyyətini üzə çıxaran ən etibarlı mənbə hesab olunur.

**Məqalənin aktuallığı.** Şagird nailiyyətlərinin kəmiyyət və keyfiyyətini üzə çıxaran qiymətləndirmənin üsul və vasitələrinin tərtibi və tətbiqi sahəsində bir sıra çatışmazlıqların mövcud olması, problemlərin həlli istiqamətində məsələlərin dərindən apaşdırılmasını, əsas qiymətləndirmə növlərinin mühüm xüsusiyyətlərinin, funksiyalarının nəzərə alınması, düzgün tətbiqi aktuallıq kəsb edir.

**Məqalənin elmi yeniliyi.** Təlim prosesində qiymətləndirmənin səmərəli üsul və vasitələrinin tərtibi və tətbiqi sistemində əks-əlaqənin, əməkdaşlığın yaradılmasına kömək edən, şagird-müəllim münasibətlərinin düzgün qurulmasına, onların bir-birini daha yaxşı başa düşməsinə imkan verən qiymətləndirmə vasitələrinin işlənilməsidir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalənin praktik əhəmiyyəti ondadır ki, əsas qiymətləndirmə növlərinin səmərəli üsul və vasitələrinin tətbiqi yolları şərh olunur və əsaslandırılır.

## Ədəbiyyat

1. Azərbaycan Respublikasının ümumi təhsil sistemində qiymətləndirmə konsepsiyası // Kurikulum, 2009, № 2.
2. Abbasov Ə. Yeni kurikulumların səciyyəvi xüsusiyyətləri // Kurikulum, 2009, №1.
3. Bəylərov Ə. Şagird nailiyyətlərinin qiymətləndirilməsində yeni yanaşmalara dair // Kurikulum, 2011, № 2.
4. Əhmədov Ə. Ümumtəhsil sistemində kurikulum islahatları // Kurikulum, 2008, №1.
5. Həsənov M., Cəfərova N., Bəhmənova C. İbtidai sinif müəllimləri üçün kurikulumun məzmunu və həyata keçirilməsi yolları. Bakı: Elm/təhsil, 2014, 76 s.
6. Həsənov M., Cəfərova N. İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası. II hissə. Bakı: Mütərcim, 2013, 412 s.
7. Qəhrəmanov A. "Ümumi orta təhsil səviyyəsinin yeni fənn kurikulumlarının tətbiqi üzrə" təlim kursunun iştirakçıları üçün təlim material. Bakı, 2012.
8. Ümumtəhsil müəssisələrində təhsilalanların qiymətləndirilməsinin yeni qaydaları. "Azərbaycan müəllimi" qəz., 2018, 28 dekabr.

**Н. Джафарова**

## Внедрение современных видов оценки является важным фактором повышения качества образования


## Резюме

Создание механизмов и инструментов оценки является одним из важных шагов в развитии образования. Внедрение современных видов оценки в учебный процесс является важным фактором повышения качества образования. Объективная оценка результатов обучения считается наиболее надежным источником количественных и кАчественных достижений учащихся в качестве ключевого показателя при определении качества образования.

Результаты правильно проведенной оценки ответа студентов ,позволяют учителю, принять решение об уровне образования. При реализации стандартов содержания используются диагностические, формирующие, обобщающие виды оценки. Эти типы оценок дают направление для приобретения знаний и навыков по каждому предмету студентами.

Оценка определяется качеством выполнения задач, которые способствуют внедрению стандартов контента. Объектом оценки является способность студентов в решении задач, активное участие в работе групп, в дискуссиях, в проведении исследований, интервью, подготовка проектов, эссе, написание рассказа анкетирование и т. д.

Студенты могут продемонстрировать свои знания и умственные навыки посредством устных, письменных, визуальных, ролевых или других презентаций. Хорошо организованная презентация способствует продвижению знаний и умственных способностей студентов на высоком уровне.


**N. Jafarova**

## The introduction of modern types of assessment is an important factor in improving the quality of education


## Summary

The creation of assessment mechanisms and tools is one of the important steps in the development of education. The introduction of modern types of assessment in the educational process is an important factor in improving the quality of education. An objective assessment of learning outcomes is considered the most reliable source of quantitative and qualitative student achievement as a key indicator in determining the quality of education

The results of the correct assessment of the students' response, allow the teacher to decide on the level of education. When implementing the content standards, diagnostic, formative, summarizing types of assessment are used. These types of assessments give direction to acquire knowledge and skills in each subject by students. Evaluation is determined by the

quality of the tasks that contribute to the implementation of standards of content. The object of assessment is the ability of students to solve problems, active participation in the work of groups, in discussions, in conducting research, interviews, preparing projects, essays, writing a story, questioning, etc.

Students can demonstrate their knowledge and mental skills through oral, written, visual, role-playing or other presentations. A well-organized presentation contributes to the promotion of knowledge and mental abilities of students at a high level.

**Redaksiyaya daxil olub:** 08.07.2019